

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında parlaq və dərin məzmunlu nitqi ölkə ictimaiyyətinin ən müxtəlif təbəqələri arasında böyük məmnunluq hissi doğurmuşdur. Azərbaycan Tibb Universitetinin professoru, tibb elmləri doktoru Anar Ağayev bu barədə fikirlərini bizimlə bölüşərkən dedi:**

# Yeni parlament ölkəmizdə islahatların dərinləşməsinə töhfə verəcək

– Dövlətimizin başçısı cənab İlham Əliyevin parlaq nitqini dərin maraqla izlədim. Prezident haqlı olaraq qeyd etdi ki, ölkəmizdə parlament seçkiləri demokratik şəraitdə keçirilib, səsvermənin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirib.

Təqdirəlayiq haldır ki, altıncı çağırış Milli Məclis çoxpartiyalılıq prinsipi əsasında formalaşıb. Yenilənmə həm mövcud parlamentin tərkibində, həm də ali qanunvericilik orqanının rəhbərliyində – spiker və onun müavinləri, komitə sədrlərinin formalaşması prinsipində də özünü göstərdi. Parlament rəhbərliyi çoxpartiyalılıq prinsipi əsasında formalaşdı. Fakt budur ki, 6-cı çağırış Milli Məclisin rəhbərliyində iqtidar partiyası ilə yanaşı, bitərəflər, eləcə də azlıqda olan partiyaların nümayəndələri təmsil olundular. Bitərəflər və azlıqda olan partiyaların nümayəndələri də Milli Məclisin daimi komitələrinə sədr seçildilər. Görünən budur ki, heç bir ayrı-seçkiliyə yol verilmədi. Parlamentin hazırkı tərkibi aydın göstərir ki, Milli Məclisin yenilənməsinə, həqiqətən də böyük zərurət var idi. Milli Məclisin yeni tərkibi onu deməyə əsas verir ki, parlament ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəkdir.

Bir məqamı da vurğulamaq istərdim. Dövlətimizin başçısı nitqində qeyd etdi ki, deputatlar seçicilərlə daim təmasda olmalı, onların problemləri ilə maraqlanmalıdırlar. Fikrimcə, bu, çox dəyərli tövsiyədir. Xalqın təmsilçisi onun qayğı və problemlərinə hər zaman diqqətli olmağa borcludur. Bu gün Azərbaycan dövləti kifayət qədər güclü və qüdrətlidir. Prezident İlham Əliyevin müdrik liderliyi ilə Azərbaycan dövləti tamamilə müstəqil, prinsipial və xalqımızın milli maraqlarına uyğun siyasət yürüdür. Heç bir qüvvə Azərbaycan dövlətinə təzyiq göstərə bilməz.

Bütün bunlar hamı kimi, məni də çox sevindirir. Əminəm ki, bu gün hər bir Azərbaycan vətəndaşı, alimi, ziyalısı xalq, dövlət qarşısında böyük, məsul vəzifələr daşıdığının fərqindədir. Bu vəzifələr, ilk növbədə ondan ibarətdir ki, gərək hər birimiz çalışdığımız, təmsil olunduğumuz sahədə xalqımızın, dövlətimizin daha da güclənməsinə öz layiqli töhfəmizi verməyə çalışaq. İnanıram ki, məhz belə olacaq. Azərbaycanın tərəqqi və intibahı daha da sürətlənəcək!

**Söhbəti qələmə aldı:**
**M.HACIXANLI, "Xalq qəzeti"**

Xalq qəzeti 2020.- 13 mart.- S.3.